# Tarixçi hünəri, yazıcı eşqi

***Onun əsərləri Asiyanın "Böyük çöl"ündə, ulu Tetis okeanının varisi Kaspi-Xəzər-Quzğun-Oğuzhun dənizinin ana hövzəsində - əzəli yurd yerlərində ilkin sivilizasiya ocaqları yandıran, çoxsaylı dövlətlər, möhtəşəm imperiyalar yaradan türkün tarix yollarına güzgü tutur, işıq salır. Monosentrizmə yox deyən, passionarlıq işığında yazılan "Attila", "Əmir Teymur - Zirvəyə doğru", "Əmir Teymur - Dünyanın hakimi", "Təhmasib şah", "Şah arvadı və cadugər", "Nadir şah", "Sultan Alp Arslan" və başqa romanları ilə qədim türklərin, xüsusilə Azərbaycanın böyük tarixi gücünü, etnogenetik potensial imkanlarını, yaddaş enerjisini oyadır, bu günün ürək və beyin meydanlarına istiqamətləndirir, transformasiya edir, ədəbi sözün əbədi hüzurunda fədakar tarixçi hünəri, coşqun sənətkar eşqi ilə ciddi yaradıcılıq uğurlarına imza atır yazıçı Yunus Oğuz...***

* * *

Əvvəlcə bioqrafiyasından bir neçə rəqəmi, bəzi portret cizgilərini xatırlatmaq yerinə düşər. Bunlar onun ömür və tale yolunun əsas rəqəm və cizgiləridir: 1960-cı ilin 22 iyulunda Əli Bayramlı (indiki Şirvan) şəhərində, İsaxan kişinin ailəsində dünyaya gəlib. Həmin şəhərdəki 9 saylı orta məktəbi bitirib. 1983-88-ci illərdə Rostov Dövlət Universitetinin Fəlsəfə fakültəsində təhsil alıb. 1988-92-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışıb...

Bu, elmi və ədəbi yaradıcılığın ilkin axtarış, coşqun özünüdərk illəri idi. Tarix qeyri-adi bir cazibə ilə duyğularına hakim kəsilir, onu özünə çəkir, qədim türklərin, oğuzların susqun yaddaş yolları çağırırdı onu. Tarix elmində uzun müddət hökm edən monosentrizmin natamamlığı, ədalətsizliyi, davamlı yalanı ruhunu sıxır, sarsıdır, böyük türkoloq Lev Nikolayeviç Qumilyovun konseptual tədqiqatlarla irəli sürdüyü passionarlıq nəzəriyyəsi tarixçi duyğularında çıraqlar yandırırdı.

Təsadüfi deyil ki, illər ötdükcə "Türklərin tarixinə yeni bir baxış", "Attila", "Türkün gizli tarixi" əsərlərini, xüsusilə "Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqiqatlarında" monoqrafiyasını yazıb çap etdirdi, öz tarixçi sözünü söylədi, prinsipial elmi-konseptual mövqeyini açıq şəkildə, cəsarətlə irəli sürdü Yunus Oğuz. Bu, dolayısı ilə yad, yabançı imperiya maraqlarına xidmət edən ənənəvi sovet tarixşünaslığından, onun bir çox stereotipləri və ehkamlarından imtina, qədim türklərin və prototürklərin əzəli tarix, sivilizasiya yollarına yeni baxış idi.

"Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqiqatlarında" adlı kitabında Yunus Oğuz "...türk super etnosunun təşəkkül və inkişaf tarixini xüsusi metodika ilə araşdırmaqla, əslində, tarix elmindəki bir çox stereotipləri və ehkamları cəsarətlə inkar edir" (professor Yaqub Mahmudov). Həmin əsərdə Yunus Oğuz bir sıra elmi avtoritetlər, nüfuz sahibləri ilə polemikaya girməkdən, öz elmi-nəzəri mövqe və münasibətlərini açıq şəkildə bildirməkdən çəkinmir, ciddi, tutarlı arqumentlər, əsaslı analogiyalarla öz həqiqətini irəli sürür və təsdiq edir. Hətta əsərin üçüncü fəsli belə adlanır: "L.N.Qumilyovun "Türklərin Şərqdən Qərbə axını" nəzəriyyəsinə tənqidi baxış". Əsas odur ki, əsərdə tənqid naminə tənqidçilik yox, həqiqət naminə ciddi, realist tənqidlə qarşılaşırıq.

Bir misal: "L.N.Qumilyovdan fərqli olaraq belə düşünürük ki, daha bir passionarlıq növü də var. Bizcə, bunu ideoloji passionarlıq adlandırsaq daha düzgün olardı. Məsələn, bunun bariz nümunəsi sırf ideologiya, yəni şiəlik əsasında yaranmış Səfəvilər dövlətinin qurulmasıdır. Əvvəlcə passionarlıq sırf təriqət kimi təbliğ olunsa da, sonradan Şeyx Cüneydin dövründə hərbi-siyasi gücə çevrilir və Şah İsmayıl tərəfindən əsası qoyulan bu dövlətin, yaxud imperiyanın və superetnosun yaranmasında əsas rolu ideoloji passionarlıq oynamışdır.

Bunu da qeyd etmək yerinə düşərdi ki, ideoloji passionarlıq coğrafi məkanda yerləşən etnosun passionarlıq hissəsinin tərkibinə daxildir. Belə ki, etnosun təkanı və alovlanması XII-XIII əsr Eldəgizlər, yaxud Atabəylər dövrünə təsadüf edir. Bu təkan nəticəsində Qaraqoyunlular, daha sonra isə Ağqoyunlular dövlətləri yaranır. Dövlətlərin adı müxtəlif olsa da etnos eynidir və dominantlığı oğuz türkləri aparır. Maraqlıdır ki, Osmanlı imperiyasında da passionarlıq oğuz səlcuq türklərinə aiddir. Buradan belə bir nəticəyə gəlmək olar ki, oğuz türkləri arasında VI-VII əsrlərdən başlayan inkişaf təkanı, passionarlıq XI-XIII əsrlərdən iki yerə ayrılmış və sərbəst inkişaf etmişdir".

Və ya həmin əsərin başqa bir yerində oxuyuruq: "Az tayfaları Mərkəzi Asiyaya göytürklərin zamanında hardan gəlib çıxdı? Axı, bu tayfa Ön Asiyada və Azərbaycanda e.ə. III minillikdən yaşayırdı və müxtəlif mənbələrdə adları çəkilir. Bu barədə daha sonra məlumat verəcəyik. Məsələ bundadır ki, mövcud olan tariximizdə "TARİXİN QIRILMA ANI" var..."

Yunus Oğuz Azərbaycan tarixinin qırılma anlarını, boş səhifələrini, unudulan, daha doğrusu, biləRəkdən unutdurulan taleyüklü məqamlarını yada salır, ön plana gətirir, cəsarətlə tarixçi hünəri ilə əsas milli-strateji hədəfləri və dövlətçilik perspektivlərini göstərir, necə deyərlər, əlahəzrət həqiqətin qapılarını taybatay açır.

Və ya əsərin başqa bir məqamında Yunus Oğuzun haqlı qəzəbinə, kinayəsinə, dəmir məntiqinə şahid olur, əsl həqiqətin yollarını görürük. Oxucu tarixi mənbələrin soraq verdiyi bir faktı - 2300 il bundan əvvəl İbrahim peyğəmbərin arvadı Sara öləndən sonra "...türk hökmdarının qızı Kantura ilə evlənməsi" faktını müəllifin elmi-konseptual şərhində məmnuniyyətlə qəbul edir: "Görəsən, İbrahim peyğəmbər Kanturanı Mərkəzi Asiyadan gətirmişdi? Alınmır, cənab Altay nəzəriyyəsinin tərəfdarları, alınmır! Sizin və L.N.Qumilyovun passionarlıq nəzəriyyəsinə əsasən etnosun genezisi 1000-1200 il arasında davam edir. XIII əsr ərəb tarixçisi Əbül-Fərəc qədim qaynaqlara əsaslanaraq qeyd edir ki, Kanturanın atası türk hökmdarıdır. Bu o deməkdir ki, türk dövləti yaranmamışdan öncə etnos inkişaf mərhələsini keçməli, dövlət yaratmaq üçün superetnosa çevrilməlidir. Bu o deməkdir ki, əldə olunan qaynaqlara istinad etsək, bu səltənətdə yaşayan türk etnosu, yaxud prototürklərin L.N.Qumilyovun nəzəriyyəsinə görə, passionarlığı e.ə. IV minillikdə başlayıb. Amma hörmətli Lev Nikolayeviç heç bir əsərində e.ə. IV minillikdə hətta Mərkəzi Asiyada prototürklərin yaşadıqlarını göstərmir. Hələ biz Mərkəzi Asiyada bu dövrlərdə hansısa türk dövlətinin mövcudluğundan danışmırıq. Təsadüfi deyil ki, Əbül-Fərəcdən 500 il öncə digər bir ərəb tarixçisi Curhumi göstərirdi ki, Azərbaycan ta qədimdən türklər ölkəsi sayılır, türklər çoxdan burada məskundurlar".

Bu, tariximizə tam yeni, məhz obyektiv elmi-nəzəri yanaşmadır, tarixçi-filosof Yunus Oğuzun cəsarətlə təsdiq, tədqiq və təqdim etdiyi milli tarixçilik mənzərəsidir. Bu, uğurlu bir yanaşmadır.

"Siyasi hakimiyyətin idarəetmə prinsipləri" adlı ilk kitabını 1994-cü ildə çap etdirən Yunus Oğuz bütün elmi və ədəbi əsərlərində Azərbaycanın tarixi haqlarını, həqiqətlərini, milli-dövləti maraqlarını ön plana çəkir, təsdiq, təbliğ və tərənnüm edir. Lakin bir daha vurğulayıram ki, bu təsdiq, təbliğ, tərənnüm xətti ucuz pafosdan, bayağı patetikadan çox uzaqdır, ilk növbədə ciddi, analitik tarixçi-filosof təfəkkürünə, istedadlı yazıçı müşahidələrinə, sənətkar səmimiyyətinə əsaslanır. Onun tarixi romanları elmi və ədəbi həqiqətlərin doğma övladıdır. Attila, Alp Arslan, Əmir Teymur, Şah Təhmasib, Nadir şah kimi böyük sərkərdə-hökmdarlara həsr edilən bu sanballı əsərlərdə ayrı-ayrı şəxslər, dahilər yox, türkün tarixi gücü, xalqın etno-genetik potensial imkanları, qılınc və qələm qüdrətli fatehlik zirvələri, passionar qabarmaları, möhtəşəm özünütəsdiq məqamları əsas obrazdır, baş qəhrəmandır.

Müxtəlif alim, şair və yazıçılar haqqında çap olunan ondan artıq monoqrafiyanın müəllifi, fəlsəfə üzrə fəlsəfə doktoru, Yardımlı rayonunun Peştəsər kənd ümumi orta məktəbində müəllim işləyən fədakar ziyalı, ciddi elmi-filoloji təfəkkür sahibi Sabir Başirov 2015-ci ildə işıq üzü görən "Yunus Oğuz: Elmi təfəkkürlə bədii təfəkkürün vəhdəti" kitabında haqlı olaraq yazır: "Milli azadlıq hərəkatının yetirmələrindən, fəal iştirakçılarından biri də Yunus Oğuzdur. Ancaq yaxşı ki, o, siyasət bataqlığına girmədi, siyasət oyunlarında iştirak etmədi, elmi araşdırmalarının arasını kəsmədi. Bu gün biz Yunus Oğuzu iki cəhətdən qiymətləndiririk: ümumtürk və onun tərkib hissəsi kimi, Azərbaycan tarixinin ciddi araşdırmaçısı, tarixin qaranlıq məqamlarını, mübahisəli məsələlərini tədqiq edən, yeni fikir söyləyən ciddi tədqiqatçı-tarixçi-türkoloq və çox istedadlı yazıçı kimi...

...Yunus Oğuz təkcə tarixi mükəmməl bilməsi ilə yox, Azərbaycan tarixini ümumtürk, eləcə də dünya tarixi kontekstindən ayırmadan tədqiq edir (alim kimi) və bu tarixi bütün mürəkkəblikləri, ziddiyyətləri və təsvir edən bədii əsərlər yazması ilə fərqlənir..."

Yunus Oğuz müraciət etdiyi tarixi dövrlərin panoram mənzərəhəqiqətlərini ciddi alim, mütəxəssis səviyyəsində bilən və bildiklərini istedadlı sənətkar səviyyəsində ədəbiyyata gətirməyi bacaran yazıçıdır. O, Azərbaycan tarixinə, adətən, ümumtürk tarixi miqyaslarından gəlir, elmi-ədəbi haqqa-halallığa xəyanət etmədən, heç bir rəngə, boyaya, kosmetik bər-bəzəyə uymadan təmiz bir milli mövqe, səmimi bir təhkiyə ilə roman-düşüncələrini oxucuya danışır. Və əsası da odur ki, oxucu onu eşidir, ona inanır... Yəqin buna görədir ki, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin deputatı Nizami Cəfərov Yunus Oğuzun "Nadir şah" tarixi roman-kitabına yazdığı geniş həcmli "Ön söz"ü belə adlandırmışdır: "Yunus Oğuz xalqımızın tarixini danışa bilir".



Azərbaycan ədəbiyyatının, ədəbi dilinin, tarix və bütöv mədəniyyətinin dərin bilicisi, böyük zəka sahibi, müasir milli, ümumtürk elmi-mədəni mühitinin fədakar, fenomenal tədqiqatçısı və təbliğatçısı olan professor Nizami Cəfərovun həmin məqaləsindən nisbətən geniş bir sitat gətirməyi bu məqamda gərəkli hesab edirəm: "Nadir şah" olduqca böyük həcmli romandır. İndiyə qədər yazılan tarixi romanlarla müqayisə etsək, tarixi belə geniş panoramla görmək, onun yetişdirdiyi şəxsiyyətlər, onların mühiti, mövzuya çox həssas və həcmli müraciət etmək baxımından Yunus Oğuzu Məmməd Səid Ordubadi ilə müqayisə etmək olar...

...Yunus Oğuzun bir müvəffəqiyyəti də ondan ibarətdir ki, o, Nadir şahın obrazını yaradanda Nadir şaha qədər və Nadir şahdan sonra Azərbaycanın birliyi, bütövlüyü, Azərbaycan millətinin bir millət olaraq yüksəlişinə xidmət etmiş bütün tarixi şəxsiyyətlərdən elementlər toplayıb. Nadir şaha qədər də, Nadir şahdan sonra da hansı böyük dövlət adamları azərbaycanlılara, Azərbaycana xidmət edibsə, onların hər birinin xarakterindən müəyyən elementlər Nadir şahda var. Əsər həm də buna görə mükəmməldir.

Romanın üstün cəhətlərindən biri də odur ki, o yalnız böyük bir coğrafiyanı, Azərbaycanın tarixi coğrafiyasını əhatə etmir, hətta beynəlxalq münasibətlərə gedən mürəkkəb prosesləri də əhatə edir və Nadir şahın apardığı mübarizə həmin o beynəlxalq mübarizə fonunda verilir. Osmanlı dövlətinin, Rusiyanın, bir az sonra hətta Avropa dövlətlərinin Azərbaycanda gedən proseslərə nəzarəti, mənə elə gəlir ki, nə qədər obrazlı olmasına baxmayaraq, az qala bir sənət dəqiqliyi ilə təqdim edilib. Bu da onunla bağlıdır ki, Yunus Oğuz Azərbaycan tarixini yaxşı bilməklə yanaşı, beynəlxalq münasibətlər tarixini də kifayət qədər dərindən öyrənmiş bir adamdır.

Bu həcmdə və bu keyfiyyətdə əsər yazmaq qüdrətində olan yazıçılarımız çox azdır. Ona görə də bu məqamda da Yunus Oğuzun qədrini bilməliyik. Onu qiymətləndirməliyik ki, o bizə xalqımızın tarixini danışa bilir. Özü də belə deyək, ustad səviyyəsində danışa bilir".

Bu sözləri oxuya-oxuya professor N.Cəfərovun səmimi həyəcanlarını hiss edirəm, istedadlı, böyük perspektivləri ilə seçilən elm və sənət adamlarımızın qorunmasına həqiqi ehtiyac olduğunu düşünürəm...

1991-92-ci illərdə "Ordu" qəzetinin baş redaktoru olan, 1995-ci ildən bu günə qədər "Olaylar" qəzeti və "Olaylar" informasiya agentliyinin baş redaktoru vəzifəsində çalışan Yunus Oğuz müasir Azərbaycan jurnalistikasında özünəməxsus dəst-xətti, səviyyəli, vətənpərvər publisist mövqeyi ilə seçilir. 2005-ci ildə "Tərəqqi" medalına, 2010-cu ildə "Əməkdar mədəniyyət işçisi" adına layiq görülən Yunus Oğuz tarixçiliyində, yazıçılığında olduğu kimi jurnalistikasında da ilk növbədə realistdir, həqiqətpərəstdir, fəal vətəndaş mövqeyinin sahibidir. O, bütün elmi, ədəbi, publisistik fəaliyyətində, silsilə əsərlərində Azərbaycandan başlayır və Azərbaycana doğru gedir. Cəsarətlə demək olar ki, Türkçülük, Azərbaycançılıq xətti Yunus Oğuz ünvanlı elm və sənət dünyasının əsas istiqaməti, strateji hədəfidir.

Bir cəhəti də xüsusi vurğulamaq istəyirəm, bu, çox vacib məqamdır.

Yunus Oğuzun elmi və ədəbi əsərləri bir sıra xalqların dillərinə tərcümə olunub, müxtəlif ölkələrdə dəfələrlə nəşr edilib. 2003-cü ildə "Qarabağ-nəzarətsiz zona" kitabı ingilis dilində Londonda, 2006-cı ildə "Türkün tarixinə yeni bir baxış" kitabı fars, türk, rus dillərində müvafiq ölkələrdə çap olunub. 2009-cu ildə "Nadir şah" romanı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Qızıl kəlmə" mükafatının "Şans" ödülünə layiq görülüb. Təhsil Nazirliyinin qərarı ilə "Türkün tarixinə yeni bir baxış", "Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqi-qatlarında" adlı əsərləri ali məktəblərdə dərs vəsaiti kimi, "Nadir şah" və "Təhmasib şah" romanları isə sinifdənxaric oxu ədəbiyyatı kimi sifariş edilib və bu məqsədlə çap olunub. Nyu-Yorkda, Londonda, Moskvada, İstanbulda, Kiyevdə, Daşkənddə, Alma-Atada, Bişkekdə, bütövlükdə dünyanın 22 ölkəsində 40-a yaxın kitabı nəşr edilərək yayılıb, bir sıra beynəlxalq mükafatlara layiq görülüb. O, beynəlxalq səviyyədə tərcümə edilmə, çap olunma, yayılma, oxunma miqyaslarına görə seçilən, çoxlarını geridə qoyan azsaylı müasir yazıçılarımızdandır. Əsası da odur ki, Yunus Oğuzun xarici ölkələrdə tərcümə və çap edilərək yayılan, kütləvi oxucu marağına səbəb olan əsərləri hansısa tolerant, kosmopolit mövqeyi ilə yox, məhz yüksək standartlara cavab verən türkçülük, azərbaycançılıq elmi-ədəbi xətti ilə seçilir. Onun əsərləri dünyaya Azərbaycan haqq və həqiqətlərini danışır.

Bütün bu dediklərim elmin, ədəbiyyatın ümumxalq taleyinə, millətin yaşam tərzinə canlı qovuşma mənzərəsidir, alimin, yazıçının mənsub olduğu xalqa, millətə, dövlətə yaradıcı enerjiötürmə qüdrəti, keyfiyyətli xidmət nümunəsidir. Necə deyərlər, əsər yazılır və xalqın, millətin, dövlətin taleyində İŞ GÖRÜR...

* * *

***O, elmə, sənətə könül verdiyi gündən tarixin yaxın-uzaq yollarında dolaşır, keçmişin gizli, qaranlıq yaddaş hücrələrində qəlbinin, Vətən sevgisinin çıraqlarını yandırır, Azərbaycan həqiqətlərini bütün dünyaya danışır, olduğu kimi təqdim edir. Hər təzə əsəri, yeni romanı ilə tarixin qaranlıqlarına işıqlı qapılar açır, oxucularını Vətən müqəddəsliyinin işıqlı qapılarına çağırır Yunus Oğuz. Və həmin işıqlı qapılardan tarixçi hünərinin, yazıçı eşqinin səsi gəlir...***

**Sadıq Elcanlı**